# Həcc və ümrə ziyarətinə gedən kimsənin edəcəyi zikrlər



Miqatlar (ziyarət etmək üçün niyyət ediləcək yerlər)

Ümrə və təməttu həccini yerinə yetirmək istəyən adam niyyət etdikdən sonra belə deyir:

- *[Ləbbeykə umratən, ləbbeyk allahummə ləbbeyk] "Ümrə ziyarətini yerinə yetirmək üçün hüzurundayam! Hüzurundayam, Allahım, hüzurundayam!"*
- Qiran həccini yerinə yetirmək istəyən adam niyyət etdikdən sonra belə deyir: *[Ləbbeykə umratən və həccən, ləbbeyk allahummə ləbbeyk] "Ümrə və həcc ziyarətlərini yerinə yetirmək üçün hüzurundayam! Hüzurundayam, Allahım, hüzurundayam!"*
- İfrad həccini yerinə yetirmək istəyən adam niyyət etdikdən sonra belə deyir: *[Ləbbeykə həccən, ləbbeyk allahummə ləbbeyk] "Həcc ziyarətini yerinə yetirmək üçün hüzurundayam! Hüzurundayam, Allahım, hüzurundayam!"*
- Daha sonra ümrə və təməttu həccini yerinə yetirmək istəyən kəs Kəbəni görənədək təlbiyyə edir. Qiran və İfrad həccini yerinə yetirmək istəyən kimsələr isə Əqəbə sütununa daşları atana qədər təlbiyyə edir.

---



Təvaf etmək

- Təvaf edən kəs hər Kəbənin ətrafında dövrə etməyə başladıqda əli ilə qara daşa işarə edərək *"Allahu əkbər"* deyir. Yalnız birinci dövrədə "Allahu əkbər" dən əvvəl *"Bismilləh"* deyə bilər.
- Yəmən küncündən qara daş olan küncə tərəf getdikdə bu duanı edir: *[Rabbənə atinə fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar] "Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də gözəl nemətlər bəxş et və bizi Cəhənnəm əzabından qoru!"*
- Zəvvar (yeddinci) təvafı bitirdikdən sonra imkan daxilində İbrahim عليه السلام məqamının arxa tərəfinə gedir və orada bu duanı edir: *[Vət-təxizu min məqami İbrahimə musallə] "İbrahimin məqamını namazgah edin!"*
- Orada iki rükət nafilə namazı qılır və birinci rükətində "əl-Kafirun", ikinci rükətində isə "əl-İxlas" surələrini oxuyur.

[Bismilləhir-Rahmənir-Rahim. Qul yəə əyyuhəl-kafirun! Ləə ə'budu mə tə'budun. Və ləə əntum abidunə məə ə'bud. Və ləə ənə abidun məə əbədtum. Və ləə əntum abidunə məə ə'bud. Ləkum dinukum va liyə din]

Mərhəmətli, Rəhmli Allahın adı ilə! «De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"» əl-İxlas surəsi

[Bismilləhir-Rahmənir-Rahim. Qul huva-llahu əhəd. Allahus-saməd. Ləm yəlid və ləm yuləd. Və ləm yəkul-ləhu kufuvan əhəd]
Mərhəmətli, Rəhmli Allahın adı ilə! «De: “O Allah Təkdir! Allah heç kəsə, heç nəyə Möhtac deyildir əksinə, hər bir məxluq Ona möhtacdır. O, nə doğub, nə də doğulubdur. Və Onun heç bir tayı-bərabəri də yoxdur!”»

---



Səy etmək

- Səfa dağına yaxınlaşdıqda belə deyir:

*[İnnəs-səfa vəl-mərvaətə min şəairilləh. Əbdəu bimə bədə Allahu bih]*
*“Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir!” “Allah nə ilə başlamışsa, mən də onunla başlayıram!”*

- Səfa dağının üstünə qalxdıqda, üzünü Kəbəyə tərəf tutub “Allahu əkbər, əlhəmdulillə” deyir sonra bu zikri oxuyur:

*[Ləə ilahə illəllahu vəhdəhu ləə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şey'in qədir. Ləə ilahə illəllahu vhdəhu, əncəzə və'dəhu və nəsəra abdəhu və həzəməl-əhzəbə vəhdəh]*
*“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və düşmənlərdən olan dəstələri tək Özü məğlub etdi!”*
Sonra istədiyi duanə edə bilər. Sontra yenə bu zikri edib istədiyi qədər dua edə bilər. Sonra bu zikri edib, Mərvə dağına tərəf getməlidir. Orada Səfa dağının üstündə dediklərini təkrar etməlidir. Beləcə hər dəfə Səfa və Mərvə dağlarının üstünə qalxdıqda bu zikrləri etməlidir.

- Təvaf və səy əsnasında zəvvarın edicəyi xüsusi dualar yoxdur. Bu əsnada müsəlman zəvvar istədiyi qədər faydalı zikrlər və dualar edə bilər.

---



Zülhiccə ayının 8-ci günü

- Təməttu həccini yerinə yetirmək istəyən adam ihrama girir və belə deyir: *[Ləbbeykə həccən, ləbbeyk allahummə ləbbeyk]* *“Həcc ziyarətini yerinə yetirmək üçün hüzurundayam! Hüzurundayam, Allahım, hüzurundayam!”*

Qiran və İfrad həcclərini yerinə yetirənlər isə heç nə demirlər. Çünki artıq miqatda ihrama girmişlər.

- Zəvvar Minadan Ərəfata doğru getdikdə təlbiyə və təkbir *(Allahu əkbər)* deməklə məşğul olsa onun üçün daha xeyirli olar. Hər iki zikri demək Peyğəmbərdən ﷺ və onun səhabələrdən رضي الله عنهم varid olub.



**Zülhiccə ayının 9-cu günü**

- Ərəfa günü bu duanı çoxlu demək müstəhəbdir: *[Ləə ilahə illəllahu vəhdəhu ləə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şey'in qədir.]*

*“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir.”*

Nəhayət, Günəş batmağa doğru meyl etdiyi vaxtdan Günəş batanadək dua etməklə məşğul olur.

---



**Zülhiccə ayının 10-cu günü**

- Fəcr namazından sonra imkan daxilində Müzdəlifədə - Məşərul-Həramda, imkan olmasa elə olduğu yerdə dua edir, təkbir gətirir və Allaha həmd-sənalar deyir.
- Əqəbə sütununa daş atmağa gəldikdə təlbiyə duasını dayandırır və həmin sütuna yeddi ədəd daş atır, hər daşı atanda *“Allahu əkbər”* deyir.
- İfadə (bayram günü edilən) təvafında, İbrahim məqamında qıldığı iki rükət namazda və həccin səyində, ümrə ziyarətində oxuduğu duaları və zikrləri oxuyur.

---



**Təşriq günləri - zülhiccə ayının 12 ,11, və -13 cü günləri**

Əvvəlcə kiçik sütuna yeddi ədəd daş atır və hər daşı atanda *“Allahu əkbər”* deyir. Sonra bir qədər qarşıya tərəf keçib qibləyə tərəf üz tutur və uzun-uzuda dua edir. Sonra orta sütuna yeddi ədəd daş atır və hər daşı atanda *“Allahu əkbər”* deyir. Sonra sol tərəf keçib qibləyə tərəf üz tutur və uzun-uzuda dua edir. Sonra böyük sütuna yeddi ədəd daş atır və hər daşı atanda *“Allahu əkbər”* deyir. Bu daşları atdıqdan sonra dua etmir.

---



**Vida təvafı**

- Zəvvar ümrə təvafında etdiyi zikrləri vida təvafında da edir.

---

Səhih dualar


Dr. Abdullah
ibn Həmud əl-Fureyh



اقتداء العلمية الوقفية
Elmi vəqfin ardınca getmə müəssisəsi